<table>
<tr><td rowspan="9">Ümumi məlumat</td><td>Fənnin kodu, adı və kreditlərin sayı</td><td colspan="2">MATH 223, Riyaziyyat və onun tədrisi metodikası 1, 6 ECTS</td></tr>
<tr><td>Departament</td><td colspan="2">Riyaziyyat</td></tr>
<tr><td>Proqram (bakalavr, magistr)</td><td colspan="2">Bakalavr</td></tr>
<tr><td>Tədris semestri</td><td colspan="2">2025/2026 -cı tədris ilinin payız semestri</td></tr>
<tr><td>Fənni tədris edən müəllim (lər)</td><td colspan="2">r.ü.f.d. Əsgərova Aida Xurşud qızı</td></tr>
<tr><td>E-mail:</td><td colspan="2">aidaasgarova@gmail.com, aida.asgarova@khazar.org</td></tr>
<tr><td>Telefon:</td><td colspan="2"></td></tr>
<tr><td>Mühazirə otağı/Cədvəl</td><td colspan="2">Çərşənbə axşamı: 09:00-10:30, 10:40-12:10</td></tr>
<tr><td>Konsultasiya vaxtı</td><td colspan="2"></td></tr>
<tr><td>Prerekvizitlər</td><td colspan="3">Yoxdur</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="3">Azərbaycan dili</td></tr>
<tr><td>Fənnin növü (məcburi, seçmə)</td><td colspan="3">Məcburi</td></tr>
<tr><td>Dərsliklər və əlavə ədəbiyyat</td><td colspan="3">1. A.Ə. Məcidova. Riyaziyyatdan Didaktik materiallar-4 sinif. Çaşıoglu-2009<br>2. M.B. Namazov. Riyaziyyatdan çalışmalar 4,5 sinif. “Azəri” Poliqrafiya<br>3. M.H.Yaqubov, I.M.Abdullayev, Ə.H.Yaqubov, N.A.Kərimli, A.H.Bağırov, H.N.Ağayev, M.M.Vəliyev. RIYAZIYYAT. BAKI-2008.</td></tr>
<tr><td>Kursun vebsaytı</td><td colspan="3"></td></tr>
<tr><td rowspan="5">Tədris metodları</td><td colspan="2">Mühazirə</td><td></td></tr>
<tr><td colspan="2">Qrup müzakirəsi</td><td></td></tr>
<tr><td colspan="2">Praktiki tapşırıqlar</td><td></td></tr>
<tr><td colspan="2">Praktiki məsələnin təhlili</td><td></td></tr>
<tr><td colspan="2">Digər</td><td></td></tr>
<tr><td rowspan="9">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td></td><td>30</td></tr>
<tr><td>Praktiki məsələ</td><td></td><td></td></tr>
<tr><td>Davamiyyət</td><td></td><td>5</td></tr>
<tr><td>Tapşırıq və testlər</td><td></td><td>20 (3 quiz)</td></tr>
<tr><td>Aktivlik</td><td></td><td>5</td></tr>
<tr><td>Prezentasiya/Qrup müzakirə</td><td></td><td></td></tr>
<tr><td>Final imtahanı</td><td></td><td>40</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
<tr><td>Kursun təsviri</td><td colspan="3">Kurs tələbələrə elementar həndəsə, ölçmə, kəsrlərlə əməliyyatlar, mürəkkəb tənliklərin həlli, və sahə–həcm hesablamaları üzrə əsas anlayışları və tətbiq metodlarını öyrətmək məqsədi daşıyır. Kursun məzmunu orta məktəb səviyyəsində riyaziyyatın əsas sahələrini əhatə etməklə tələbələrdə riyazi düşünmə, məntiqi əlaqə qurma, və praktik tətbiq bacarıqlarının inkişafına yönəlib.<br><br>Tələbələr kurs çərçivəsində bucaqların növləri, qonşu və qarşılıqlı bucaqlar,həndəsi fiqurların xassələri, uzunluq, sahə, həcm və zaman vahidləri kimi ölçmə anlayışları ilə tanış olurlar. Kurs çərçivəsində tələbələr, həmçinin sadə kəsrlər, düzgün və düzgün olmayan kəsrlər, qarışıq kəsrlər və onlar üzərində aparılan əsas riyazi əməliyyatlarla tanış olacaq, bu anlayışlardan məsələlərin həllində istifadə edəcəklər. .<br><br>Bundan əlavə, kursda mürəkkəb tənliklərin qurulması və həlli, həndəsi fiqurların sahələrinin və həcmlərinin hesablanması öyrədilir. Riyaziyyatın həm nəzəri, həm</td></tr>
</table>

| | |
|---|---|
| | də tətbiqi tərəfləri arasında körpü yaradan bu kurs, tələbələrin müstəqil analiz aparmaq, hesablamalar nəticəsində nəticələr çıxarmaq, və riyazi düşüncəni sistemli şəkildə ifadə etmək bacarıqlarını formalaşdırır. |
| **Kursun məqsədləri** | Kursun məqsədi tələbələri həndəsə elementləri, bucaqların növləri, qonşu və qarşılıqlı bucaqlar, ölçü vahidləri (uzunluq, sahə, həcm, vaxt), əsas həndəsi fiqurlar, kəsr növləri (sadə, düzgün, düzgün olmayan və qarışıq kəsrlər) və onlar üzərində aparılan əməllər, mürəkkəb tənliklərin həlli üsulları, eləcə də fiqurların sahə və həcm hesablamaları ilə bağlı əsas anlayışlar və hesablama metodları ilə tanış etmək və bu sahələr üzrə tələbələrə praktik bacarıqlar qazandırmaqdan ibarətdir. |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Bu kursun sonunda tələbələr aşağıdakı bilik və bacarıqlara malik olacaqlar:<br><br>o Həndəsə elementlərini tanıyacaq və təhlil edəcək:<br>• Bucaqların növlərini (iti, kör, düz, tam), qonşu və qarşılıqlı bucaqları ayırd edə biləcək.<br>• Fiqurların (üçbucaq, dördbucaq, çoxbucaqlılar və s.) əsas xassələrini izah edəcək.<br>o Müxtəlif ölçü vahidləri arasında çevirmə əməliyyatlarını yerinə yetirməyi bacaracaq:<br>• Uzunluq, sahə, həcm və zaman vahidlərini müəyyənləşdirəcək və çevirmə aparacaq.<br>• Ölçmələr üzərində sadə hesablamalar yerinə yetirəcək.<br>o Kəsrlərin müxtəlif növlərini üzərində əsas riyazi əməliyyatları düzgün tətbiq edəcək.<br>• Sadə, düzgün, düzgün olmayan və qarışıq kəsrləri fərqləndirəcək.<br>• Kəsrlər üzərində əsas riyazi əməliyyatları düzgün və səmərəli şəkildə yerinə yetirəcək.<br>o Mürəkkəb tənlikləri quracaq və həll edəcək:<br>• Praktik vəziyyətlərdən tənliklər quracaq.<br>• Müxtəlif üsullarla (addım-addım sadələşdirmə, əvəz etmə və s.) tənlikləri həll edəcək.<br>o Sahə və həcm hesablamalarını tətbiq edəcək:<br>• Sadə həndəsi fiqurların (düzbucaqlı, kvadrat, üçbucaq, çevrə) sahəsini hesablaya biləcək.<br>• Həcmi olan fiqurların (kub, paralelpiped və s.) həcmini hesablamağı bacaracaq. |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Dərslərdə iştirak etmək:**<br><br>Tələbələrdən bütün otaqlara öz təhsilinin bir hissəsi kimi diqqət göstərməsi və üzrlü səbəbdən dərsdə iştirak edə bilmədikdə (xəstəlik, ailə üzvlərindən birini itirdikdə) onlardan dekanlığı məlumatlandırmaq tələb olunur.<br><br>Ümumiyyətlə, tələbənin 25% dərsdə iştirak etməməsi onun imtahandan kənarlaşdırılmasına gətirib çıxarır.<br><br>**Gecikmə:** Tələbə dərsə on (10) dəqiqədən artıq gecikərsə,ona qayıb yazılır. Bununla belə həmin tələbə dərsdə iştirak edə bilər.<br><br>**Dərsə hazırlaşma** |

| | |
|---|---|
| | Kursun stukturu onu fərdi öyrənməyə imkan verir və sinifdən kənar dərsə hazırlıq üçün olduqca mühümdür. Mühazirə materialı mətndə müzakirə olunan əsas məsələlər üzərində qurulacaq. Dərsdən əvvəl seçilmiş fəsillərin oxunuşu və onlarla tanışlıq mühazirənin başa düşülməsində sizə böyük köməyi dəyəcəkdir. Mühazirədən sonra siz apardığınız qeydləri öyrənməli və hər fəsilin axırında verilən uyğun məsələlər və yoxlama sualları üzərində çalışmalısınız.<br><br>Semestr ərzində çoxlu sayda yoxlamalar olacaqdır. Bu yoxlamalar dərs periodu ərzində keçiriləcəkdir.<br><br>**İmtahan (keçmə / kəsilmə )**<br><br>Tələbənin imtahanda uğur qazanması üçün onun göstəricisi ən aşağısı 60 % olmalıdır. Onun imtahanda müvəffəqiyyət qazanmadığı halda növbəti semestr və ya ildə onun kursu təkrar keçməsinə ehtiyac qalır.<br><br>**Professionalizmə doğru**<br><br>Dərs saatı ərzində tələbə akademik yaradıcı və professional mühitə aparan yolla hərəkət etməlidir. Yolverilməz diskussiyalar və qeyri etik hərəkətlər birbaşa qadağan olunur.<br><br>**Kursun uğurlu alınması**<br><br>Kursun uğurla başa çatmasından ötrü, tələbələr dərs saatı ərzində aktiv iştirak etməli və diskussiyalara cəlb olunmalıdır.<br><br>**Öyrənmə və Öyrətmə üsulları**<br><br>Kursun aktiv öyrənilməsi prosesinə üstünlük verilir. Mühazirələr, diskussiyalar, çalışmalar, tipik nümunələr |

| **Həftə** | **Tarix**<br><br>**(planlaşdırılmış)** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
|---|---|---|---|
| 1. | 16.09.2025 | Uzunluq və uzunluq vahidləri.<br><br>Həndəsə elementləri. | [1] səh. 41-44, 31-34<br><br>[2] səh. 54-62, 193-194<br><br>[3] səh. 3-10 |
| 2. | 23.09.2025 | Kütlə və kütlə vahidləri.<br><br>Bucaqlar. Qonşu bucaqlar, qarşılıqlı bucaqlar. | [1] səh.46-49,<br><br>[2] səh. 150-152<br><br>[3] səh. 10-13, 23-26 |
| 3. | 30.10.2025 | Vaxt və vaxt vahidləri.<br><br>Paralel düz xətlər. Perpendikulyar düz xətlər. | [1] səh. 50-55<br><br>[2] səh. 82-84 |

| | | | |
|---|---|---|---|
| | | | [3] səh. 15, 26-27 |
| 4. | 07.10.2025 | Sahə və sahə vahidləri.<br><br>Həndəsi fiqurlar. Düzbucaqlı. | **Quiz 1 ( 6 bal)**<br><br>[1] səh. 60-66<br><br>[2] səh. 63-68<br><br>[3] səh. 82-83 |
| 5. | 14.10.2025 | Həcm və həcm vahidləri.<br><br>Düzbucaqlılar: düzbucaqlı, kvadrat, onların sahələri və perimetrləri. | [1] səh. 67-70<br><br>[2] səh. 76-81, 60-67, 166-180<br><br>[3] səh. 78-79 |
| 6. | 21.10.2025 | Dəyişəni olan ifadələr.<br><br>Romb.Trapesiya. Paraleloqram<br><br>Çoxluqlar. | [1] səh.71-77, 80-81<br><br>[2] səh. 208-215, 34-40<br><br>[3] səh. 79-86 |
| 7. | 28.10.2025 | Üçbucaqlar. Bərabəryanlı üçbucaq. Bərabərtərəfli üçbucaq. Üçbucagın perimetri.<br><br>Düzbucaqlılar: düzbucaqlı, kvadrat, onların sahələri və perimetrləri.<br><br>Dəyişəni olan ifadələr. | [1] səh. 71-77, 80-81<br><br>[2] səh. 153-159, 34-40<br><br>[3] səh. 78-79 |
| 8. | 04.11.2025 | Sadə kəsrlər, düzgün kəsrlər, düzgün olmayan kəsrlər, qarışıq kəsrlər və onlar üzərində əməllər.<br><br>Düzbucaqlı üçbucaq.<br><br>Çevrə. Dairə.<br><br>Sürət. Vaxt. Məsafə. | **Quiz 2 (7 bal)**<br><br>[1] səh. 78-86,<br><br>[2] səh. 3-19, 74-85<br><br>[3] səh. 55-56<br><br>[1] səh. 89-90<br><br>[2] səh. 82-87, 160-161<br><br>[3] səh. 63-64 |
| 9. | 11.11.2025 | **BAYRAM** | |

| | | | |
|---|---|---|---|
| 10. | 18.11.2025 | **ARALIQ İMTAHANI**<br><br>Qiymət, miqdar, dəyər. | [1] səh.87-88<br><br>[2] səh. 45-47 |
| 11. | 25.11.2025 | Qarşı-qarşıya hərəkətə aid məsələlər.<br><br>Eyni istiqamətli hərəkətə aid məsələlər. | [1] səh. 91-94<br><br>[2] səh. 88-90, 94-95 |
| 12. | 02.12.2025 | Əks istiqamətli hərəkətə aid məsələlər.<br><br>Axar suda hərəkətə aid məsələlər. | **Quiz 3 (7 bal)**<br><br>[1] səh.94-98<br><br>[2] səh.91-93 |
| 13. | 09.12.2025 | Fəza fiqurları. Kub. Paralelepiped.<br><br>Kəsrlərin müqayisə olunması. | [2] səh. 86-89,181-191<br><br>[3] səh. 306-310 |
| 14. | 16.12.2025 | Sahə vahidləri. Fiqurların sahələrinin hesablanması.<br><br>Qalıqlı bölmə. Əbob. Əkob. | [2] səh. 195-196<br><br>[3] səh. 215-222 |
| 15. | 23.12.2025 | Fiqurlarin sahələrinin hesablanması.<br><br>Əməllər sırası. Mürəkkəb tənliklər.<br><br>Həcm vahidləri. Fiqurların həcminin hesablanması. | [2] səh. 64-70, 197<br><br>[3] səh.345-348 |
| | **TBA** | **FİNAL İMTAHANI** | |

Bu tədris proqramı fənn haqqında məlumatı özündə əks etdirir və hər hansı dəyişiklik barədə öncədən xəbər veriləcək.